# OYUNDAN SEVGİYƏ BİR ADDIM YOLMUŞ...



Nizami MURADOĞLU
Fil.ü.fəlsəfə doktoru, dosent

Adilə Nəzər Azərbaycan poeziyasında lirik məni ilə tanınan şairlərimizdəndir. İncə qəlbinin dərin ehtizazlarını pıçıltıya çevirib nəğmə də oxuya bilər, dərdi, kədəri ilə düşündürə də bilər. Şeirlərində səmimiyyəti ilə seçilən şairənin sevgi qanadlarında ruhumuza hopan duyğuları hər zaman müasirdir, aktualdır, gəncliyin orta yaş həddi ilə sərhəd zolağındakı görüşü, dənizlə sahil arasında çırpınan dalğalar kimi bir-birini əzizləyən laciverd damlaların birləşməsini xatırladır.

Kövrək qəlbi, şirin xəyalları şairənin uşaqlıq dünyasının olub-keçənlərini günümüzə gətirməklə, əslində insanın özündən ayıra bilmədiyi duyğunun dünəndən bu günə transferi və bu gündən sabaha ərmağanıdır. Şairə daima uşaqlıq dünyasını əks etdirən şeirlər yazır, bir növü bu gündən dünənə qayıdır, bütün insanların keçmiş olduğu, qəlbinin hansısa qatında gizlənib qalmış xatirələrini oyadır.

Bu baxımdan Adilə Nəzərin "GİZLƏNPAÇ OYUNU" şeiri də uşaqlıq sevgisini uduzanların dünya ilə gizlənpaç oynamaq cəhdinə bənzəyir. Uşaq oyunlarının zamanında düzgün qiymətləndirilə bilməməsi ucbatından uğursuzluğa düçar olan sevgilərin xatirə işığında lirik qəhrəman bu dəfə dünyanı müqabil tərəf kimi görür və fikirləşir:

*Yumasan gözlərini,*
*gizlənməyə yer tapmaya dünya -*
*bir dəfə də sən udasan oyunu*
*Tutasan yaxasından,*
*fırladasan başına,*
*göstərəsən bütün bucaqlarını*
*Hər bucağın*
*hər sevgidə*
*çiçək-çiçək olduğunu,*
*ayrılıqda*
*bulud-bulud dolduğunu,*
*fəsil-fəsil solduğunu*

Şairə sələfləri kimi həyatın amansızlıqları ilə qarşılaşdıqda bütün təqsirləri dünyada görür. Sanki dünya cığal bir rəqib olaraq oyunun qaydalarını pozub ədalətsiz qalibiyyət qazanmışdır. Əsl həqiqətdə isə oyunun qaydalarında elə bir pozuntu yoxdur, oynayan tərəflərdən biri uduzmalıdır. Oyunda uduzmaq həyatda uduzmaq deyildir, lakin oyunda uduzanlar öz səhvləri ucabatından bəzən həyati məsələlərin həllində də çaşqınlıq içərisində qalırlar ki, bu da öz fəsadları ilə ömrü boyu insanı təqib edir. Belə bir duyğunu içində zaman-zaman yaşadan tərəf bu dəfə dünyanın özü ilə gizlənpaç oynamaq həvəsinə düşür. Qəlbindən dünyanın üzünə tərs bir şapalaq vurmaq istəyi keçir. Dünya xəyalında sevgisini itirmiş tərəf kimi nə qədər nifrətə layiqdirsə, bir o qədər də keçmiş günlərin xatirinəmi, yoxsa



hələ də unudulması mümkünsüz olan bir sevgili kimi əzizdir. Onun başını tumarlayıb, vurduğu sillənin acısını unutdurmaq üçün bir-birinə qoşulub ağlayan sevgililər yaşayır şairənin duyğularında. Lakin bütün bu düşüncələrin sonunun nə ilə nəticələnəcəyi məchuldur. Dünya ilə gizlənpaç oynamağın sadə bir iş olmadığını anlayan lirik qəhrəman bu oyunda qalib gələ bilməsə də, heç olmasa, heçheçə bitirməyi arzulayır.

*Silkələyib tökəsən hər küncünü,*
*göstərəsən gücünü,*
*alasan verdiyin bacların öcünü -*
*son oyunda*
*Üzündə şillə yeri var dünyanın*
*çəkib, sonra tumarlayasan başını*
*uşaq kimi*
*Sonra da qoşulub ona son dəfə*
*ağlayasan, -*
*tən gələsiniz deyə*
*Beləcə*
*Anından ömür keçə*
*Ya oyun sənin xeyrinə bitə,*
*ya da,*
*heç olmasa heç-heçə*

Adilə Nəzərin uşaqlıq oyunlarının xatirəsi ilə yazdığı şeirlərdən biri də "Sevir-sevmir"dir. Şeir bizi uşaqlıq dünyamıza aparır, fal açma yolu ilə gələcəyi müəyyənləşdirmək kimi xəyallar quran uşaqların ömür səhifələri gözlərimiz qarşısında canlanır. Kənd uşaqlarının fal açaraq qarşıda olacaq hadisələri öyrənmək marağı müxtəlif əyləncəli oyunlarla həyata keçirilirdi. Məsələn, müəllimin dərs soruşub-soruşmayacağını bilmək üçün uşaqlar fal açardı. Bunlar müxtəlif vasitələrlə icra olunurdu. Yerdən bir neçə xırda daş götürüb sayırdılar, olacaq, olmayacaq deyirdilər. Axırıncı daşın necə çıxmağından asılı olaraq qərar qəbul edilirdi. Fal açdırmaq istəyən tərəflərdən birini deyərdi. Fal açan qara beş qəpikliyi fırladıb göyə atardı. Pul yerə düşərdi, fal açdıranın dediyi tərəf üstdə olanda uğurlu sayılırdı. Əks tərəf düşəndə uğursuzluq hesab edilərdi. Bəzən bu fal açmalar sırf təsadüf nəticəsində düz çıxırdısa, böyük inam yaradırdı. Qızlar bu fal açmaları adətən gül-çiçək ləçəklərini saymaqla icra edirdilər.

Fal açan, açdıqları falın nəticəsindən doğan böyük ümidlər ilə yaşayan gənclər zaman keçdikcə uşaqlıq xatirələrinin işığında keçmişi yada salır, bəzən də həmin oyunları günümüzə gətirirlər. Şeirdə təsvir edilən hadisə də keçmiş xatirələrin işığında sevdiyi adamın onun sevgisinə münasibətini müəyyənləşdirmək cəhdidir. Sevdiyi adamın şəhərdə olmaması sanki həyatın pərgarını pozubdur. Sevən gənc dünən axşamdan darıxır, özünə yer tapa bilmir, səhərin gözü açılar-açılmaz həyətə çıxıb bir gül dərir. Gülün ləçəklərini bir-bir qopararaq sevilib-sevilmədiyini öyrənməyə çalışır. Şairə bu mənzərəni canlı və isti duyğularla təsvir edə bilib:

*Əl uzadıb, çiçək dərib*
*Fal açıram,*
*Ləçəkləri bircə-bircə qoparıram,*
*Ürəyimdə say hesabı aparıram,*
*Sevir-sevmir,*
*Sevir-sevmir...*

Şairəni uşaq oyunlarını xatırlamağa məcbur edən başlıca səbəb uşaqlıq dünyasının paklığıdır. Bütün insanların içərisində bir uşaq səmimiyyəti, saflığı vardır. Gəncliyin formalaşdığı, məhəbbətə düçar olanların tərəddüdlər içində çırpındığı anlarda uşaqlıq duyğuları baş qaldırır, gənclərdə inam, ümid yaradır. "Sevir-sevmir" şeirinin mahiyyətində də bir ümid işığı vardır, məşuqə fal açaça seviləcəyini düşünür.

Amma gəncliyində fala inanan, özü də gül ləçəkləri ilə fal açmağa çalışan lirik qəhrəman həyatının orta çağlarında bir hadisə baş verir. Bir gün falçı qadınla rastlaşır. Falçının sözlərinə inanmaq istəməyən, mənliyinə zərbə vuran, sevgisinin təməlini sarsıdan fikirləri eşitdikcə qəlbinin dərinliklərində gedən təlatümlərin içində çırpına-çırpına qalan şairə yazır:

*Yalan deyir falçı qadın...*
*Yox...*
*Mən səndən ayrılmaram,*
*Qəlbimi öz sinəmdən*
*Özüm söküb atmaram -*
*Bilə-bilə, qana-qana...*
*İnanmıram mən ona...*

Bundan sonra nə qədər sarsılsa da yenidən öz məhəbbətinə dönmək arzusu ilə çırpınır. Yenidən uşaqlıq dünyasına qayıtmaq, o təmiz, ülvi sevgini yaşamaq həsrətini çəkir. Bəli, Adilə Nəzər incə qəlbli, həssas və duyumlu bir şairədir. Bu səbəbdən də xəyallarında uşaqlıq dünyasında baş verən hadisələri dönə-dönə yaşayır, xatirələri içindən keçirərək günümüzə gətirir, o düşüncələrin işığında insanın anlamaqda çətinlik çəkdiyi xoş duyğularla süslənmiş mənəvi bir rahatlıq tapır. Bu hisslər "Gəl bir oyun oynayaq" şeirində belə canlandırılır:

*Gəl bir oyun oynayaq,*
*İkimiz arasında.*
*Sən gözlərini yuman,*
*Mənsə gizlənən olum.*
*Uzat əllərini, gəl,*
*Çata biləcəksənmi?*
*Görüm itirsən məni*
*Tapa biləcəksənmi?*

Şairə bu oyunun adını "Sevgi" qoymaq istəyir. Bu oyunda kimin udub, kimin uduzacağı bəlli olmasa da, şairə özünü Leyli, müqabil tərəfi Məcnun kimi təsəvvür edir:

*Gəl bir oyun oynayaq,*
*Adını sevgi qoyaq,*
*Kim uduza, kim uda.*
*Mən Leyli timsalında,*
*Sənsə Məcnunu oyna.*

Günahkar oyunçular həyatın dolanbac yollarında çaşıb qaldılar. Nə Məcnun səhranın yanğısına dözə bildi, nə Leyli özündə cəsarət tapıb Məcnuna qovuşa bildi. Bu oyun iki günahkar arasında qaldı. Əzəl başdan oyunda məğlubiyyətini görən lirik mən ömrünün sonunda da olsa, bu oyunu yenidən oynamaq haqqında düşünür:

*Bilirəm, qəlbimizi*
*Sonda qanadacağıq,*
*Əvvəl-axır bu oyunu*
*İkimiz oynayacağıq.*
*Gəl bir oyun oynayaq.*

Gecələri qəlbinin sınıq yaralarının sızıltısı, ahı-kədəri ilə keçirən, hər anında xatırlayıb unuda bilmədiyi, unutmaq istədikcə xatırladığı sevgisini çağırır:

*Qalmayıb qəlbimdə sınmayan yanım,*
*Sənsiz yaşanmayıb saatım, anım.*
*Salam unutduqca xatırlananım,*
*Di gəl, qollarımı salım boynuna.*

Uşaq oyunlarının sonu həmişə sevgiyə çevrilibdi. Lakin uşaqlıqda bu sevgi hissini anlamaqda çətinlik çəkənlər sonradan o dövrün xatirələrinin işığında xəyallara dalmalı olurlar. Zaman bizim istəyimizdən asılı olmayaraq keçib gedir. Bir də ayıqlığın yuxusundan oyananda uzaq keçmişi yada salıb, o günlərin isti qucağını arzulayırsan. Bütün insanlar belədir. Bütün insanlar bu hissləri yaşayır, lakin hamı onun bədii ifadəsini tapıb sözə çevirə bilmir. Hətta, hər şairin də işi deyil ki, hisslərindəki səmimiyyəti poeziyasında anlada bilsin. Adilə Nəzərin xoşbəxtliyi ondadır ki, həyatda səmimi olduğundan artıq poeziyasında səmimi və mehribandır. Dərdi də, kədəri də, sevinci, gülüşü, düşündükləri də təkcə özünün deyil, həm də oxucularının qismətinə yazılan paydır. Adilə kimsəni təqlid etmir, həyatını, duyğularını anladır. Xalq şairi Musa Yaqub demişkən: "Adilə ruhunu, könlünü-özünü yazır".

Şairənin poeziyasında bu ruhda yazılmış şeirlər çoxdur, biz sadəcə burada bir neçəsi haqqında söhbət açdıq. Şairənin poetik ruhu kitablarının adında da hiss olunur: "Yuxuma yağış yağır", "Sevgi qum saatıdır" və s. Atalar demişkən; görünən dağa bələdçi lazım deyil.